

# 85 yaşlı Oqtay Rza: "İlk yazı masam məndən yaşlı idi..."

O, bir çox əfsanəvi qələm adamlarını canlı görüb. Bəlkə, buna görədir ki, yazdıqları da canlıdı, danışdığı bitib-tükənməyən xatirələr də. Yaşının 85 olmasına baxmayaraq, ömrünün payız çağını yaşayan bu adamın gözlərində hələ də yaz günəşinin al şəfəqləri parlayır. Hər zaman özünü baməzə göstərən kədərli adamdan danışıram – Oqtay Rzadan... Onu, bəlkə də, nə vaxtsa ağlayan görənlər olub, ancaq indiyənəcən onun zarafatlarının kürəyini yerə vuran olmayıb. Az qala bir əsrə yaxındır, Oqtay Rzanın zarafatları ədəbi aləmdə at oynadır. Hərdən mənə elə gəlir ki, Oqtay Rzanın əhvalı yaxşı olmasa, zarafatları kökdən düşsə, hönkürüb qulaqlarımızı batırar, bizi söz, səs, musiqi eşitməkdən məhrum edər.

Bu yaşında belə ağlında şeir, ürəyində sevgi, əlində portfel, dilində az qala tərzə çevrilmiş baməzə zarafatları… hamının sevdiyi şeir kimi ürəklərdə taxt qurub. Hələ sözün bütün mənalarında sağlam kişinin sağlıqlar qaldırmağından danışmıram. Onun haqqında danışmaq və gülümsəməmək mümkün deyil. Bu gözəl dünyamıza qaraqabaq adamların dolduğu bir zamanda Oqtay Rza kimi adamlar üçün ən təhlükəsiz yer ovuclarımızın içi olardı. Hərdən fikirləşirəm ki, görəsən, necə olub ki, adamların xirtdəyəcən çirkaba batdığı bir dövrdə bu adamın ayaq barmaqları belə bu çirkaba bulaşmayıb? Necə olub ki, onun ürəyinin ağ üzünə qara bir nöqtə belə düşməyib?

Onun xərcliyi iri sevgilərdi. Onun xərcləməyə xırda-mırda nifrəti, kini-filan olmaz. Çirkab götürmədiyi kimi, xərclədiyi iri sevgisinə qarşılıq, adamlardan xırda nifrət də götürməz.

...Çox çək-çevir etmədik, bu şeir-şair adamı yazı masasına çəkib söhbətləşmək qərarına gəldik. İş elə gətirdi ki, biz onunla öz yazı masasında deyil, redaksiyamızın yazı masasında görüşəsi olduq. Düşündük ki, hamıya uyuşan bu həlim adam dünyanın bütün yazı masalarında öz yazı masası kimi oturub şeir yaza, müsahibə verə bilər. Onun buna həm cəsarəti çatır, həm haqqı, həm də ərki.

İlk sualımı verəndə anladım ki, Oqtay müəllim mənim verəcəyim sualları əvvəlcədən bilir. O, bu müsahibəsində, mənimlə özüylə söhbət edirmiş kimi, Tanrıya, insanlara, özünə hesabat verirmiş kimi danışdı; bütün son müsahibələrdə olduğu kimi. Yoxsa hər zaman həyat eşqiylə coşub-daşan bir adam birdən-birə nədən daha çox ölümdən və dünyasını dəyişənlərdən danışsın ki? Demə, qapı döyülürmüş. Qapının

döyüldüyünü bircə Oqtay müəllim eşitməliymiş. Qapını o açmalıymış. Açdı da… Oqtay müəllimin ölümü belə qapıda gözlətməyə ürəyi gəlmədi...

Mən bütün bunları müsahibə çapa gedən ərəfədə – Oqtay müəllim dünyasını dəyişəndə anladım. Oxuduğunuz bu sətirləri çıxmaq şərtiylə, sağlığında yazıya necə giriş vermişdimsə, eləcə də saxladım. Nə bir söz əlavə etdim, nə də bir söz çıxardım. Bu həmişəyaşar adam haqda keçmiş zamanda danışmaq məsuliyyətinin altına girməyə mənim gücüm çatmaz, əfəndilər. Qoy nekroloqu başqaları yazsın. Mən Oqtay müəllimə söz verdiyim kimi, jurnalın sentyabr sayı işıq üzü görən gün onun telefonuna zəng vurub, son müsahibəsinin müjdəsini verəcəyəm. Yəqin ki, dəstəyi qaldıran bir adam tapılacaq…

– Oqtay müəllim, deyirlər, salam Allahın salamıdı. Bəs sağ ol necə, Allahındı, ya bəndənin? Yaxud daha çox salam deyirsiniz, ya sağ ol?

– Fikrimcə, hər ikisi eynihüquqlu sözlərdi. Eynihüquqlu olduğu kimi, həm Yaradanındı, həm də bəndənin. Qaldı salam və sağ ol deməyimə, daha çox “sağ ol” deyirəm. Salamı çox az işlədirəm. Üç-dörd ildir, salamın əvəzinə, daha çox “Hər vaxtın xeyir” deyirəm. Salamı deyəndə gərək uzadasan. Salam-əleykum deyəsən. Ümumiyyətlə, uzadılan söz məndən uzaqlaşır, ögeyləşir mənimçün. Mən nəinki insanın, sözün belə tək qalmağını qəbul edə bilmirəm. O üzdən salam sözünü də tək qoymağa ürəyim gəlmir. “Salamlar” deyirəm, “Salamat ol”, “Salamat qalın” deyirəm. Mənim son dövr məsəl halına düşmüş, az qala pasportuma çevrilmiş bir dördlüyüm – rübaim var; salamla bağlıdı. Salamın əbədi və əzəli taleyindən bəhs edir. Orda belə bir yer var:

*Tikanı gül kimi iyləyənlər var,*
*Bülbülə torağay söyləyənlər var.*
*Məhəmməd Füzuli eşitsin indi:*
*Salamı mükafat eyləyənlər var.*

*Bir dayan, yadıma nə isə düşdü,*
*Yolum dəbdəbəli məclisə düşdü.*
*Bir nəfər salamı elə verdi ki,*
*Onun çox hissəsi rəisə düşdü.*

– Adətən, sizin rübailərinizin adı olmur. İcazə versəniz, sitat gətirdiyiniz bu şeirin adını “Salam” qoyardım. Və bu “Salam” şeirinizə görə sizə bir səmimi “Sağ ol” deyərdim.

– Çox sağ olun. Sağ olu günün, ayın, ilin, əsrin bütün saatlarında-hər zaman qəbul eləməyə hazıram.

– Bildiyiniz kimi, rubrikamızın adı “Yazı masası”dır. Ənənəvi olaraq yazı masasıyla bağlı müsahiblərimizə sual ünvanlayırıq. İş elə gətirdi ki, bu gün sizin yazı masanızda deyil, redaksiyamızın yazı masasında söhbətləşəsi olduq. Bildiyim qədəriylə, yaşınız 85-ə çatıb. Maraqlıdır, yaşlı, qocaman şairin yazı masasının neçə yaşı var?

– Yazı masalarım hər zaman ünvanıma görə dəyişib. İlk şeirlərimi beşinci sinifdə oxuyanda yazmışam. İlk yazı masam elə məktəbdə partam olub. Belə götürsək, ilk yazı masamın yaşı mənim yaşımdan daha çoxdu.

Daha çox ortaq yazı masalarım olub. Tələbə vaxtı yataqxanada qalanda bir alim dostumla ortaq yazı masamız varıydı. Daha çox o yazı masamı xatırlayıram. Orda gah alim dostum elmi əsərlərini yazırdı, gah da mən şeirlərimi.

1960-cı ildə mənə Mədənlər Birliyindən ev verdilər. Həmin balaca evdə özümə kiçik bir yazı masası düzəltdim. O, bəlkə də, mənim ilk şəxsi yazı masam oldu. Günlərin bir günü gözlənilmədən tanınmış rejissor Arif Baba və jurnalist Soltan Nəcəf başda olmaqla böyük bir çəkiliş qrupu bizə gəldi ki, səndən reportaj hazırlamaq istəyirik. Razılaşdım. Məni əvvəlcə neft mədənlərində, sonra da həmin yazı masası arxasında çəkdilər. Səhv eləmirəmsə, AzTv-nin arxivində həmin reportaj indi də qalmaqdadır. Çox istərdim, o kadrlara yenidən tamaşa edim. Gənclik illərində yazı masası arxasında necə göründüyümü təkrar izləyim.

– Oqtay müəllim, şair kimi püxtələşməyinizdə, tanınmağınızda daha çox hansı şairlərin böyük rolu olub?

– Mən Səməd Vurğun, Mirzə İbrahimov, Məmməd Rahim, Rəsul Rza, Osman Sarıvəlli kimi adamları görmüşəm. Hər biriylə bu və ya digər şəkildə münasibətim, ünsiyyətim olub. Ancaq daha çox Rəsul Rzanın qayğısını hiss etmişəm öz üzərimdə. Yaxşı yadımdadır, bir dəfə Rəsul Rzayla Xaqani küçəsiylə Bülbül prospektinin kəsişdiyi yerdə qarşılaşdım. Yazıçılar İttifaqına üzv olub-olmadığımı soruşdu. Üzv olmadığı-

mı bildirdim. Dedim ki, dəfələrlə üzvlüklə bağlı müraciət etsəm də, hansısa qüvvə məni ora üzv qəbul olunmağa qoymur. Rəsul müəllim evə gedirdi. Bunu biləndən sonra dərhal mənimlə birlikdə İttifaqa qayıtdı. Qalxdıq ikinci mərtəbəyə – Cabir Novruzun yanına. Soruşdu ki, Oqtay indiyənəcən niyə İttifaqa üzv olmayıb? O da məlum məsələni, adını indiyəcən bilmədiyim o adamın törətdiyi əngəli əsas gətirərək bildirdi ki, kimsə mənim üzv olmağımın əleyhinə olub. Rəsul müəllim qayıtdı ki, səndən həm xahiş edirəm, həm də tələb edirəm, Oqtay bura üzv olmalıdı. Beləliklə, mən 1981-cü ildə Hüseyn Arifin, Nəriman Həsənzadənin və Gəray Fəzlinin zəmanəti əsasında Yazıçılar İttifaqına üzv qəbul olundum. 1983-cü ildə isə Xalq yazıçısı Mirzə İbrahimov mənə dörd otaqlı ev verdi.

Rəsul müəllim hər zaman məni özüylə tədbirlərə, görüşlərə aparardı. Hətta bir dəfə tədbirlərin birində Rəsul Rzanın ən sevdiyim "İki buruğun söhbəti" şeirini əzbərdən deyib, təhlilini verdim. Bildirdim ki, sözügedən şeirdə bəhs edilən buruqlardan biri qoca buruqdu, o birisi gənc. Gənc buruq lovğalanır. Qoca buruq da deyir, çox da lovğalanma, qasırğa qopsa, ikimiz də məhv olarıq. Mənim keçmişim silinər, sənin də gələcəyin yox olar. Bu təhlilləri o qədər cani-könüldən apardım ki, Rəsul Rza kövrəldi, gözləri doldu.

– Söhbət Rəsul Rzadan düşmüşkən, sizi həmyerliniz Xəlil Rzayla, eləcə də digər "Rza"larla bağlayan nədir?

– Öncə onu deyim ki, "Rza"ların sayı yeddidir. "Yeddi oğul istərəm" kimi... Şəmşad Rza var, Ənvər Rza var... Hələ başqa bir Rəsul Rza da varıydı. Masallıdan idi. Həmin Rəsul Rzanı Xalq Şairi Rəsul Rzadan fərqləndirməkdən ötrü həmişə müəllifin adının qarşısına mötərizədə"Masallı" yazırdılar. Rəsul Rzayla bağlı həyatımın kəsişən məqamlarını cavablandırdım. Xəlil Rzayla isə 1948-ci ildən 1951-ci ilə qədər o zamanlar Salyan Mərkəzi Kitabxanasında təşkil edilmiş ədəbi dərnəyin üzvü olmuşuq. Əliağa Kürçaylı, Ağacavad Əlizadə kimi görkəmli şairlər də məhz həmin dərnəyin üzvlərindən idi. O vaxt Xəlil "Xəlilbəyli" imzasıyla çıxış edirdi. Mən də o zamanlar "Rzayev" təxəllüsü ilə yazırdım. Sonralar babam Rzanın adını özümə təxəllüs götürdüm. Xəlil Xəlilbəyli də öz növbəsində, özünə atası Rza kişinin adını götürdü, oldu Xəlil Rza. Həmişə demişəm, indi də deyirəm, bizim "Rza"ların böyük qardaşı Rəsul Rza olub. Bir dəfə Rəsul müəllimə dedim ki, Moskvada "Literarturniy" qəzetinin muxbiri mənə sual verdi ki, sən Rəsul Rzanın qohumusan? Mən də bildirdim ki, yox, o, bizim rəhbərimizdi. Rəsul müəllim də zarafatla güldü: "Gərək deyərdin ki, biz qohumuq".

– Biz sizi hər zaman ürəkdən gülən görmüşük. Allah dərd verməsin, nə vaxtsa ürəkdən ağlamısınız?

– Ürəkdən ağladığım məqamlar, bəlkə də, ürəkdən güldüyüm məqamlardan daha çoxdur. Bu səksən beş illik ömrümdə o qədər kədərli hadisələr olub ki... Məsələn, Mənsur adlı bir gənc neftçi alim varıydı. Qırx iki yaşında ürək tutmasından vəfat etdi. Həyatın işinə bax ki, mən həm onun toyunda söz alıb şeir dedim, həm də dəfnində... Haqqında danışdığım Salyandakı ədəbiyyat dərnəyinə o da gəlirdi. Mənsurun dəfnində çıxış eləmək istədim, hıçqırtı boğdu məni, danışa bilmədim. Araya sükut çökdü. Bir müddət sonra özümü ələ aldım, çıxış elədim. Axırda özümü saxlaya bilmədim, hönkürdüm. Hətta dəfndən sonra "Lenin" mükafatı laureatı məşhur neftçi Bəhmən kişi yaxınlaşıb dedi ki, sənin çıxışın və hönkürtün molladan çox yandırdı məni. Bir də Salyanda Yasər adlı publisist varıydı. Qarabağda müharibə başlayanda özüylə kömək aparıb könüllü cəbhəyə getdi. Onun dəstəsini mən özüm yola saldım müharibəyə. Yasər müharibədən sağ qayıtdı, amma ağır xəstəlikdən dünyasını dəyişdi. Bir də ən çox Yasəri ağlamışam. Hətta Əlisəmid Kür mənə belə bir şeir yazmışdı: "Sənin göz yaşına baxıb ağladım..." Təsəvvür edirsinizmi, Əlisəmid Kür kimi sərt adam mənim göz yaşıma baxıb, ağlayıb?

Mənim göz yaşından bəhs edən bir rübaim var. Orda belə misralar var:

*Fərəhdən ağlasan, göz yaşı şirin,*
*Qəmdən ağlayanda göz yaşı şordu.*

Şeirdə işlətdiyim fikri tibb işçiləri də təsdiqləyə bilər. İnsan dərddən ağlayanda gözünün altına ağ çöküntü-duz yığılır. Sevinc göz yaşlarında isə bu hal yaşanmır. Nə bilim, şirin göz yaşı da tökmüşəm, şor göz yaşı da.

– Xalq Şairi Nəriman Həsənzadəyə həsr etdiyiniz bir şeirinizdə deyirsiniz ki, "Doxsan inciməsin, öndə iki cür, Yüzü var Nəriman Həsənzadənin". Bəs öz qarşınızda neçə "yüz" görürsünüz?

– O yüzdən birini hamı qabağına çəkə bilər. Onu qabağa çəkmək elə də qəhrəmanlıq tələb eləyən şey deyil. Qaldı o biri yüzə, ona doğru getmək çətin məsələdi. Üstəlik, yaşın səkkizlə başlaması çox qorxuludur. Gərək səkkizi qabağa buraxmayasan. Qabağa buraxdınsa, o səni qabağına salıb aparacaq. Tanıdığım on qələm adamının səkkizi, səkkizlə başlayan yaşda-səksənli yaşda köçüb bu dünyadan. Mirzə İbrahimov, Bəxtiyar Vahabzadə, Qabil...

– Bir şeirinizdə belə bir bənd var:

*Hər qaya elə bil xəyala dalıb,*
*Qobustan havası köksümə dolub.*
*Nə rəssam incisin, nə dilçi alim,*
*Dünyada ilk əsər zümzümə olub.*

Yaşınızın müdrik çağındasınız. Hər halda, dünyanı bizdən daha yaxşı tanıyırsınız. İllər, duyğular, hisslər yaşamısınız. Dünyanın ilk əsərini təxmin edən şair, dünyanın son simfoniyasının nə olacağını düşünür?

– Dünyanın sonu ola bilər... elə sonuncu əsəri də... Yəqin, dünyanın son əsəri xeyirxahlıq üstündə bəstələnəcək. Bilirsən, insanlar elə bir inkişaf mərhələsinə çatıblar ki, bir-birinə yalnız yaxşılıq etməlidirlər. Nə yazıq ki, insanlar daha çox bir-birinə pislik eləməklə məşğuldurlar. İnsan oğlu bütün səhvlərini sonda başa düşəcək. Deyirəm, kaş hamımız səmimi olmağı bacaraydıq! Qırğınlar, müharibələr olmayaydı! Kosmosa gəmi göndərən, Marsa uçmağa hazırlaşan, Ayda addımlayan insanlar hələ dəhşətli müharibələri davam etdirirlər. Bu, o deməkdir ki, bəşəriyyətin şüuru bu texniki tərəqqi dövründə belə lazımi səviyyəyə qalxmayıb. Hələ də insan insanlığın nə olduğunu bütövlükdə dərk eləməyib. Yeddi milyardlıq dünya əhalisinin cüzi bir hissəsi özünü dərk eləyir. Nə yazıq ki, dünyamızın çox böyük hissəsi hələ də təmənnasız, minnətsiz yaxşılığın, xeyirxahlğın nə olduğunu anlamayan toplumlardan ibarətdir. Kaş yer üzündəki bütün insanlar bunu dərk edə biləydilər...

– Ömür boyu şeir oxumusunuz, alqış qazanmısınız. Allah son verməsin, nə vaxtsa ədəbiyyatdan gedəsi olsaydınız və sizə sonuncu dəfə şeir deməyə imkan yaratsaydılar, hansı şeirinizi deyib gedərdiniz?

*Sarı köynəyini geyinib bağlar,*
*Meşədə yarpaqlar xəzələ dönüb,*
*Heyranı olduğum dilbər qovaqlar*
*Şalını itirən gözələ dönüb.*

*Duyulur nəfəsi çənin, ayazın,*
*Küləklər bayatı çağırır yenə,*
*Durub ayrıcında qışla payızın*
*Baxıram arxaya, baxıram önə.*

*Salam, həyatımın kamillik ili,*
*Açırsan qapımı gülə-gülə sən,*
*Gəmim haraylayıb neçə sahili,*
*Son liman hardadır, necə biləsən?*

*Sinəmdə min ocaq hərarəti var,*
*Fikrim yüz hədəfə şığıyan oxdur.*
*Ömür-gün yolunun nəhayəti var,*
*Fəqət arzuların hüdudu yoxdur.*

*Səsimdə, sözümdə əvvəlki ahəng,*
*Ruhumun qidası təranələrdi,*
*Pöhrə duyğularım sərv ağacıtək*
*Həmişə yaşıldı, həmişə tərdi.*

*Dünyaya gəlmək də, ölmək də haqdır,*
*Gərək yaşayasan əməllərində,*
*Günəş də get-gedə soyuyacaqdır,*
*Başqası yanacaq onun yerində.*

*Balam ürəyimi döndərir dağa,*
*Nəvəm ürəyimi döndərir dağa.*
*Özüməm-həyatda təkrarımdı o,*
*Gücüm çatmasa da cavanlaşmağa,*
*Geriyə qayıdan baharımdı o...*

Bu şeiri deyərdim... Bu şeirdə sənin bütün suallarına cavab var: salamdan tutmuş , son sözə kimi...

*Söhbətləşdi:* **Taleh MANSUR**